# "Hanı bu xalqın yaddaşı"

**Vətən, vətəndaşlıq mövzusu tarixən şairlərin ürək, könül qızdırdığı, öyməyə, vəsf etməyə can atdığı, kədəri ilə kədərləndiyi, sevinci ilə qol-qanad açdığı şah mövzulardan olub. Bu mövzuda yeni söz demək, özəl cığır açmaq şübhəsiz ki, şairin birinci növbədə istedadından, bir vətəndaş kimi özünüdərkindən, sonra da intellektindən, dünyaduyumundan, sözün həqiqi mənasında torpaq yanğısından, Vətən sevgisindən qaynaqlanır.**

Çağdaş poeziyamızda əvəzsiz xalq şairimiz, bütöv yaradıcılığı ilə bu mövzuda yeniliklərə imza atan böyük Məmməd Arazın "Vətən mənə oğul desə nə dərdim, Mamır olub qayasında bitərdim" misraları şairlərimizin hər biri üçün, ümumən poeziyamız üçün örnək sayılan misralardır. Vətən, vətəndaşlıq mövzusunda unudulmaz xalq şairlərimiz B.Vahabzadənin, N.Xəzrinin, H.Arifin, X.L.Ulutürkün, S.Tahirin, B.Azəroğlunun və başqalarının ədəbiyyatımızın inciləri sayılacaq gözəl poetik əsərləri var ki, bu əsərlər sonrakı ədəbi nəsillərin də formalaşmasında mühüm rol oynamışdır. Necə deyərlər, sələflərdən xələflərə bir işıq, nur körpüsü miras qalmış, bu körpünün uzantısında, əhatə dairəsində yeni-yeni körpülər - işıq qəndilləri boy verməyə başlamışdır. Bu yazımda sizə söhbət açacağım şair, dünənin "gənc şair"i bu gün artıq ömrünün qocalıq dövrünə qədəm qoymuş, bəlli "yetmiş"ini arxada buraxmış, ahıl şairi Musa Ələkbərlidir. Mən Musa Ələkbərlinin Vətən və vətəndaşlıq mövzularında yazdığı şeirlərə imkanım daxilində güzgü tutacaq, onun özəl və ümumi cəhətlərinə nəzər salacaq, bu şeirlərdən aldığım təəssüratları sizinlə bölüşəcəyəm. Musa Ələkbərli əlli ildən artıqdır ki, qələm çalır, poeziyamızda öz sözünü deyir, öz dəsti-xəttini yaratmağa, bəlirləməyə çalışır.

Şairin hələ ilk kitabında "Məndən şeir istə" (Gənclik 1977) çap olunan bir qoşması Onun Vətən istəyinin, torpaq yanğısının poetik ifadəsi kimi hələ o zamandan diqqəti cəlb edirdi:

*Vətən eşqi ürəyimdə bir qala,*
*Anam deyir: - Yazan çoxdu, ay bala.*
*Zirvə andım dönəcəyəm qartala,*
*Qayalarda qanasa da qanadım.*

*Qoca Qafqaz, könlüm quşu oyaqdır,*
*Zirvələrin ilhamıma dayaqdır.*
*Hara getsəm ürəyimdə mayaqdır*
*Öz Vətənim, öz torpağım, öz adım.*

Bu sətirlər gənc şairin yaradıcılıq məramnaməsi, məqsəd və qayəsini şərtləndirən ürək, könül çırpıntıları idi.

O, ömrü boyu bu yaradıcılıq andına sadiq qalmış, canından artıq sevdiyi Vətənin ən ümdə qayğıları, dərdi, sevinciylə nəfəs almışdır.

Şairin ilk kitabında yer alan "Öpdüm" qoşması Vətən istəyinin, yurd sevgisinin canlı, hərarət və coşqu saçan ifadəsi kimi könüllərə yol tapırdı:

*Bu doğma yerdədir dünyanın varı,*
*Gözümlə gah düzü, gah dağı öpdüm.*
*Yığıldı başıma kənd adamları,*
*Böyüklə əl tutdum, uşağı öpdüm.*

*...Lalələr alışdı yollar boyunca,*
*Yalın ayağımı yaladı yonca.*

*O sıx meşələri gəzdim doyunca,*
*Yarpağı oxşadım, budağı öpdüm.*

Musa Ələkbərlinin "Məndən şeir istə" kitabında yer alan "Ocaq daşı", "Kəndimiz" Hüseyn Hüseynzadəyə (H.Arifə) həsr etdiyi "Dağ kəndi", "Bu dağlar", "Biçin nəğməsi", "Yaylaq lövhələri" şeirləri də Vətənə, torpağa, elə-obaya, təbiətə, gözəlliyə, əməksevər adamlara həqiqi mənada vurğunluğun, dəruni sevginin son dərəcə səmimi, ürəkdən, könüldən süzülən ifadəsi idi. "Məndən şeir istə" kitabında Musa Ələkbərlinin o vaxtlar yaxşı mənada səs-səda doğuran ilk lirik poeması "Torpaq yanğısı" da çap olunmuşdu.

Musa Ələkbərlinin "Tanrı mənə söyləməsə yazmaram" kitabının redaktoru olmuş şair dostu Ə.Şahin "İlahidən gələn poeziya" adlı ön sözündə yazırdı:

"Musa sonralar 1977-ci ildə "Məndən şeir istə"ni çap etdirdi. Bu kitab dərhal ədəbi ictimaiyyətin diqqətini cəlb etdi. Haqqında onlarla resenziyalar çap olundu. Görkəmli ədəbiyyatşünas alimimiz, dəyərli tənqitçimiz Qulu Xəlilov bu kitabı oxuyandan sonra "Ədəbiyyat və incəsənət" qəzetində vaxtilə tələbəsi olmuş Musa Ələkbərliyə açıq məktub yazdı, onun şeirlərinin poetik dəyərindən söz açdı. "Torpaq yanğısı" adlı lirik poemasının müsbət və mənfi tərəflərini açıqladı. Qulu müəllim həqiqi istedadın məhsulu olan bu balaca kitabın örnək olacaq məziyyətlərinə xüsusi münasibət bildirirdi.

Qulu Xəlilov yazırdı:

"Əzizim Musa, mən səni universitetdə tələbə olduğun vaxtlardan tanıyıram. Bir neçə il keçmiş ilk şeir kitabın çıxmışdır. Kitaba cəsarətli bir ad vermisən "Məndən şeir istə". Bura sənin şeirlərin və "Torpaq yanğısı" lirik poeman daxil edilmişdir.

Şeirlərindən mənə xoş gələn cəhətlər - canlı müşahidə, təbiilik və səmimiyyətdir. Sən elə bil olmuş, baş vermiş hər hansı bir hadisəni şirin ləhcə ilə adama danışırsan"

Əlbəttə, çox məşhur tənqidçinin yenicə ilk kitabını nəşr etdirən gənc bir şair haqqında bu cür ədəbi məktub yazmağı, həmin gənc şairin kimliyi haqqında çox şey deyirdi. Musa öz kimliyini elə ilk şeirlərindən yaddaşlara həkk etməyi bacarırdı. "Torpaq yanğısı" poeması o zamankı gənc şairin Vətənə, torpağa, təbiətə sonsuz sevgisindən, meşələrin qırılmasına, ekologiyanın korlanmasına fədakar şair üsyanından doğulmuşdu.

Musa poemanın epiloqunda yazırdı:

*Dağlara çıxmışam indi bahardır,*
*Nəğmədir bu yerin dumanı, çəni.*
*Daşın da göyərmək arzusu vardır,*
*Bəlkə də bu arzu səslədi məni.*

*Bir həvəs uçurdu dəli fikrimi,*
*Qovuşdum vadinin çiçək çağına.*
*Gəldim ürəyimi bir toxum kimi*
*Atım bu torpağın nəm qucağına.*

Dilin saflığı, fikrin poetik ifadəsi, obrazların canlılığı xalq ruhuna, xalq deyimlərinə yaxınlığı, Musanı sevdirir, onun şair obrazını özəlliklə cilalayırdı. Bu bir həqiqətdir ki, məsələ nədən yazmaqda yox, necə yazmaqdadır. Vətən, vətəndaşlıq duyğularını, ürəksiz, könülsüz ifadə etmək, boğazdan yuxarı qələmə almaq heç bir qələm adamına yaxşı heç nə vəd etməyib. Ürəkdən qopmayan ürəyə yatmır deyiblər. Mən Musa Ələkbərlini xeyli vaxtdır ki, mütaliə edir, poeziyasındakı özəl məqamları irdələməyə, tətqiq və təqdir etməyə çalışıram. Poetik zövqümün kamilliyinə arxalanıb cəsarətlə deyə bilərəm ki, onun ürəksiz, könülsüz yazdığı bir şeirə, hətta bir misraya belə rast gəlməmişəm.

Şairin birbaşa Vətənə müraciətlə yazdığı şeirdən aşağıdakı bəndlərə nəzər yetirək:



*Zirvələrin deyir ki,*
*Zirvələşim ucalım.*
*Düzlərin andırır ki,*
*Ucsuz-bucaqsız olum.*
*Buludların istəyir*
*şimşəyinə əl çalım.*
*Üfüqlərin çağırır;*
*hələ uzaqdır yolum.*
*...Qayaların öyrədir,*
*nədir iradə, dözüm?*
*Yollarda ayağımı*
*daş-çınqılın bərkidir.*
*Mən bir çaxmaqdaşıyam*
*gözə görünmür közüm.*
*Bircə sənin istəyin*
*alovuma ərk edir.*

*...Kəndlərin qanad açır*
*böyüyüb şəhər olsun,*
*Şəhərlərə gəlibdir*
*kəndin abu-havası.*
*Başından tökülən qoy*
*bar olsun, bəhər olsun,*
*Ehtiyacı görməsin*
*bu gözəllik dünyası.*

Heca vəzninin on üçlüyündə qələmə alınmış bu şeirdə hərəkət, daxili dinamika, Vətənə ərkin doğma oğul ərköyünlüyü ilə cilalanması duyulur, şeir ümuməm bənzərsiz deyim tərzi, özəl obrazları ilə yadda qalır:

*Palıdın pöhrə verir*
*pöhrələnim təzədən.*
*Meşələrin boy atır,*
*torpağın sozalmasın.*
*O göyərən sünbüllər*
*hər il tutur təzə dən*
*Bozaran səhralarda*
*nəfəsin köz almasın.*
*Ümmanların çağlayır*
*damcı kimi itim mən.*
*Vaxtın, zamanın deyir*
*daş üstünə daş qoyum.*
*Yaş torpağın hökm edir*
*qucağında bitim mən.*
*Küləyin pıçıldayır,*
*yarpaq-yarpaq oxuyum!*

Musa Ələkbərli yaradıcılığına "Şeir məndən ötrü ömürdü-gündü" adlı ayrıca kitab həsr edən dəyərli qələm adamı, şair tədqiqatçı Etibar Nadiroğlu yazır:

"Vətəndaşlıq mövqeyinə şair mənəvi zərurət kimi yanaşır. O zərurətdə ötəri hislərə yer yoxdur. Onun şeiriyyətinin özəyində duran əsas məqamlardan biri vətəndaşlıq borcudur. Elə bir borc ki, o borc bir toplu kimi həyatın özüdür. Orda vətənsevərlik, yurda bağlılıq, dilə həssaslıq və s.borclar cəmlənib. Bu borc naminə insan hər bir mübarizəyə hazırdır."

Mən Musanı ilk vaxtlar doğulduğu torpağa, Gədəbəyə yazdığı şeirlə tanımışam. Yeri gəlmişkən bu şeir dəyərli müğənnimiz Şamo İsayevin bəstəsi və ifasında mahnı ömrü qazanmışdır:

*Qar yağdı yenə də ağardı saçın,*
*Gəlsin ürəyimə hər ağrın-acın.*
*Ya bir kolun olum, ya bir ağacın,*
*Məni murazıma yetir Gədəbəy.*

Bu şeirdə doğulduğu, boya-başa çatdığı Gədəbəyi şəxsləndirilir. Sanki şair bu şeiri Gədəbəyə yox, doğma anasına yazıb: bax şeirin təsir gücünü belə məqamlarda aramaq lazımdır. Əbəs yerə Vətənə ana demirlər ki?! Torpağa Musa Ələkbərli sevgisi, Musa Ələkbərli səmimiyyətinin özəlliyi məhz bu cür şeirlərdə, misralarda poetik ucalığına qovuşur:

*Musa günahkardı sənin qarşında,*
*Ona urvatlıdı qara daşın da.*
*Ağayana durub dağlar başında*
*Bizi ayağına gətir Gədəbəy.*

Yenə də Etibar Nadiroğlunun kitabına üz tuturam:

"Musa Ələkbərli Vətəni könüldən sevən və könüllərə sevdirən vətəndaş təpərli şairdir. Azıyla da, çoxuyla da vətənə bağlıdır. "Şeiri ondan ötrü ömür, gün" olan şair özünəxas bir təvazö ilə lap yaxınlarda "Beş-altı kitaba yapdım bu ömrü" yazsa da, həqiqətdə bu kitablarla özü də zaman-zaman kitablaşıb.

*Ürək hökm edəndə ilham gəlmədi,*
*Mən deyən zirvəyə o yüksəlmədi.*
*Həyatdan qazancım beş-on kəlmədi,*
*Beş-altı kitaba yapdım bu ömrü.*

Artıq illərdir ki, ədəbi aləm Musa Ələkbərli ünvanına sayğıyla, maraqla, həssaslıqla baxdığı kimi, cəmiyyət də Musa Ələkbərli ünvanında bir yurd sevgili, vətən qayəli vətəndaşa güvənir."

Etibar Nadiroğlunun bu fikirlərinə isnad kimi mən şairin "Avtoportret" şeirindən aşağıdakı misraları örnək gətirmək istəyirəm.

*Vaxtlı-vaxtsız, birqərar daldım düşüncələrə,*
*Gecəm döndü gündüzə, səhərim axşam oldu.*
*Mələklər qanadında misralarım yol gəldi,*
*Güvəncim tanrı payı, hədiyyəm ilham oldu.*

Musa Ələkbərli öz ilhamına, sözünün ucalığına, şəxsiyyətinin saflığına, ürəyinin təmizliyinə duyğularının paklığına güvənən, qiymət qoyan şairdir.

Gənclik illərində yazdığı "Ehtiyac" şeirindəki bu özəl misraları da diqqətə çatdırmağı özümə borc bildim.

*Gərək varlığına qiymət qoyasan,*
*Bir gün yoxluğun da səni tanıda!*

*(ardı var)*